**Barın-bərəkətin qayıdır canı**

Barın-bərəkətin qayıdır canı –
Həyat nişanıdı buğlanan torpaq.
İllər xəstəsinin tərləyən alnı,
Durulan qanıdı buğlanan torpaq.

Çağa belə olur bələklənəndə,
Elə tüstülənir ocaqda odun.
Yarısı səmada lələklənəndə
Yarısı yerdəymiş, yoxsa buludun?

Ağ libas gəlinə oxşayır bir az,
Duvağı tərpənir fikir içində.
Qazan qapağını, yoxsa ki, aşpaz
Qaldırıb, fırladır kəfkir içində?..

Dərin yaraların sarılır üstü,
Bəyaz məlhəm düşür, ağ çara düşür…
Qara sobamızdan burulur tüstü,
Qara çaydanımız qaynara düşür.

Nənəmçün aldığım örpək payıdır,
Ağ idi onun da çəkdiyi hər ah.
Gedib o dünyanı görüb qayıidr,
Torpaq köynək yırtır elə bil, Allah!

**Barın-bərəkətin qayıdır canı : şeir // Azərbaycan xalq bayramı Novruz. – Bakı : Təhsil, 2011. – S. 56-57.**